

MAHİR CAVADLI

## GƏLIRƏM, QOYNUNU AÇ, ZƏNGILANIM!

Zəngilansız keçib ömrüm tən yarı,
Mən yarıcan oldum, can Vətən yarı.
Nəvə idim, dönüb ağsaç babaya,
Yenidən qovuşdum elə, obaya.

Gülzar bağ-bağatdan nişanəm tək tut,
Viran yurd, talan ev, başını dik tut.
Hər güllə yarana məlhəm gəlirəm!
Gözün aydın, Vətən, mənəm, gəlirəm!

Rəhbərim müzəffər, ordum mərd, qoçaq!
Tarixlər şahidi o od, o ocaq,
Bizə ululardan yadigar qalıb,
Şükür, bu cəngdən də biz çıxdıq qalib!

Dağ-qayası yalçın, düzləri qırçın,
Başında şax tacı çinar ağacın!
Çəməni çiçəkli çələng olanım,
Dünyada qəşəngdən-qəşəng olanım,
Bayrağı ay-ulduz, üçrəng olanım,
Gəlirəm, qoynunu aç, Zəngilanım!

## ŞUŞADA QILINAN BAYRAM NAMAZIM

*30 ildən sonra! 2021-ci il mayın 13-də*
*Yuxarı Gövhər Ağa məscidində*
*Ramazan bayramı namazı qılındı.*

Nə gözəl taledir, nə xoş qismətim,
Doğma yurdda yenə coşdu avazım!
Mərdliyim, qururum, hayam, ismətim -
Şuşada qılınan bayram namazım!

Boy alıb tarixə görk mənliyimdən,
İslam dəyərmdən, türk mənliyimdən,
Qazax, özbək, tacik, türkmənliyimdən-
Şuşada qılınan bayram namazım!

Tanrıya çağırış, haqqa sədadır,
Paklığa, saflığa, düzə nidadır!
Ürəyə məlhəmdir, ruha qidadır-
Şuşada qılınan bayram namazım!

Yumruğum sərt dağlar, qayalarımdır,
Zəfərim - çin olan royalarımdır!
Dünyaya sülh dolu dualarımdır -
Şuşada qılınan bayram namazım!

## HƏR KƏSİN NƏSİBİ...

Lovqa qarğaların son tikəsini
Tülkülər aldada-aldada yeyib.
Şahın fərmanıyla başlar kəsilib
Tənələr həmişə cəllada dəyib.

Cinayətkar gördüm fağırdan-fağır,
Dolmuş gözlərində yaşı, tökəmmir.
Bilir ki, günahı səbəbdən ağır.
Amma ətəyindən daşı tökəmmir.

Neynirsən taxt-tacı, olmasan aqil,
İpini cəkəcək vəzir-vüzəra.
Qarşında ötsələr yaltaqlar dil-dil,
Demək ki, düşmüsən çətin güzara.

Yeddi qapı sirrdir söz muğamatda,
Səsin zəngüləsi, bəmi, zili var.
Mənalı bir yolu tut ki, həyatda
Hər kəsin nəsibi son mənzili var.

# MƏLƏKSİMA QƏHRƏMANIM

*Şəhid Cəbrayıl Dövlətzadənin*
*əziz xatirəsinə*

Yurdun mərd igid oğlu,
Sənə Babək, Koroğlu,
Ya Qoçaq Nəbi deyim?!
Yaraşarmı adına
Bu oxşatma, bu deyim!
Mübarizi anımmı?
Ya Polada yanımmı?
Dağ qartalı Raqifi,
Həsənimi vəsf edim,
Şəhidliyə ucalan
Hər ər oğlu igidim
Şan-şöhrətə layiqdir,
Bu millətə layiqdir,
Cəhənnəmə göndərdin
Neçə namərd azğını.
Necə daşnak faşistin
Üzmüsən boğazını.
Siz ey yad gülləsinə
Sinəsini gərənlər,
Azadlıq həvəsinə
Həyatını verənlər!
Vətən eşqinə yanıb,
Kükrədiniz, coşdunuz,
Şəhidlik zirvəsində
Siz haqqa qovuşdunuz.
Qürurla dolaşdıqca
Azad eli-obanı,
Səcdəgaha çevrilir
Şəhidlər Xiyabanı!

# XUDA YAR OLDU

Yurdun Xudayar oğlu,
Xuda yar olmasaydı,
ulu əcdadlarını
qoynunda əzizləyən
torpağın nəfəsindən,
səni öndə gözləyən
yurd-yuva həvəsindən,
sənin şücaətini
addım-addım izləyən
mərdlərin nərəsindən
güc ala bilərdinmi?
Şəhidlik zirvəsinə
ucala biıərdinmi?!..

Xuda yar olmasaydı,
o dumanlı dağların
başında durardınmı?
Sıx dumandan özünə
bir xeymə qurardınmı?!
Xuda yar olmasaydı,
o mehriban səsində,
həzin, rəvan səsində
zəngulə vurardınmı?

Xudayar olmasaydı,
doğma yurduna dönmək,
duşməni əzib enmək
olardımı nəsibin?!..
Xudadan gələn səsdir
o Xudayar təsnifin!
Xalqın Xudayar oğlu,

Hər bir qəhrəmanımın
ürəklərdə var adı,
Əbədi yaşayacaq
şəhid Xudayar adı!

# YARANDIM

Gen olan bu dünyada,
Mən bir dünya yarandım.
Vardım, gəldim, nə fərqi?
Ya döndüm, ya yarandım.

Fərdlər gördüm dünyada,
Fərqlər gördüm dünyada,
Dərd-sər gördüm dünyada
Duya-duya yarandım.

Bir duyğudan baş aldım,
Bir sevgidən xoş oldum,
Gözlərimdən yaş aldım
Döndüm suya, yarandım.

İnsan özü zərrədir,
Həmişə nəzərdədir.
Nəyim var sözlərdədir,
Mən - ideya, yarandım.

# KEÇDI

Var-dövlətə uymadım
Şan-şöhrət də yan keçdi.
Varkən varı duymadım,
İndi də ki çox gecdi.

Fürsəti verdim bada,
Qəm eyləməm nəbadə.
Eh, ötənə min qada,
Onsuz da sonu heçdi.